№ 27 (970) 6-12 iyul 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymәti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# İLHAM ƏLİYEV: “BİZ ÇOX QISA MÜDDƏT ƏRZİNDƏ UĞUR QAZANA VƏ BİZNES İCMALARI ÜÇÜN ÇOX MÖHKƏM TƏMƏL YARADA BİLƏRİK”




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Polşa Respublikasına rəsmi səfərdə olmuşdur.

İyunun 27-də rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Andjey Dudanın təkbətək və geniş tərkibdə görüşləri keçirilib.

Görüşlərdə Polşa Prezidenti ölkələrimiz arasında siyasi sahədə əlaqələrin uğurla inkişaf etdiyini bildirmiş, qarşılıqlı ticarət dövriyyəsinin daha da artırılmasının vacibliyini qeyd etmişdir. İqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu bildirən Prezident Andjey Duda bu sahədə imkanların araşdırılması baxımından Azərbaycan-Polşa biznes forumunun və imzalanan sənədlərin əhəmiyyətini vurğulamışdır.

Görüşlər zamanı, həmçinin nəqliyyat, dəmir yolu, energetika, infrastruktur, kənd təsərrüfatı, maşınqayırma, turizm, ərzaq, tikinti, əczaçılıq sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Prezident İlham Əliyev və Prezident Andjey Duda “Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında Strateji Tərəfdaşlıq və İqtisadi Əməkdaşlığa dair Yol Xəritəsi haqqında Birgə Bəyannamə”ni imzalamışlar.

Sonra Polşa Respublikasının Prezidenti Andjey Duda və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatlarla çıxış ediblər.

* * * * *

**İyunun 27-də Varşavada Azərbaycan-Polşa biznes forumu keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Andjey Duda biznes forumun açılış mərasimində iştirak ediblər. Dövlət başçıları biznes forumda çıxış ediblər.

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından**

- Bu gün biz əməkdaşlığımızın inkişafının yeni mərhələsinə qədəm qoyuruq. Mənim Polşaya səfərim çox uğurlu keçir. Biz bir çox sənədləri imzalamışıq. Onların arasında mən strateji tərəfdaşlıq və iqtisadi əməkdaşlıq üzrə Birgə Bəyannaməni xüsusi vurğulamaq istəyirəm. Bu, siyasi və iqtisadi əlaqələrimizin inkişafında yeni bir yol xəritəsini əmələ gətirir. Bəyannamənin adı bizim iqtisadi əməkdaşlığa necə önəm verdiyimizi göstərir. Bugünkü biznes forum onun digər bir göstəricisidir. Çünki biznes icmaları çox həssasdırlar və çox aydın başa düşürlər ki, bu gün Polşa və Azərbaycan arasında yüksək səviyyəli siyasi əlaqələr onlar üçün yeni imkanlara yol açır.

Bu gün Polşa ən yüksək iqtisadi artım sürəti, siyasi və iqtisadi sabitlik nümayiş etdirir. İnkişaf isə bu gün ölkənizin tərəqqiyə doğru yolunu gücləndirmək üçün çox yaxşı imkanlar yaradır.

Azərbaycana gəlincə, ölkəmiz nisbətən gəncdir, müstəqillik yalnız 25 il bundan öncə bərpa olunmuşdur. **Biz keçən il bunu qeyd etdik. Bu illər transformasiya illəri - siyasi, sosial və əlbəttə ki, iqtisadi transformasiya illəri olmuşdur. Bu gün Azərbaycan, həmçinin çox yaxşı iqtisadi fəaliyyət nümayiş etdirir. 2004-cü ildən bəri iqtisadiyyatımız üç dəfədən çox artmışdır. Biz işsizliyi və yoxsulluğu 5-6 faiz səviyyəsinə qədər azalda bilmişik. Hazırda ümumi daxili məhsulun 70 faizdən çoxu özəl sektorun payına düşür və maliyyə ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə artıqdır. Beləliklə, iqtisadi və siyasi baxımdan Azərbaycan sabit və son iyirmi ildə 200 milyard dollardan çox sərmayə cəlb edə bilmiş bir ölkədir. Bunların təxminən yarısını xarici sərmayələr təşkil edir. Əlverişli investisiya mühiti və əcnəbi investorlar üçün çox etibarlı investisiya şəraiti şirkətlərə Azərbaycanda işləmək üçün yaxşı imkanlar yaradır.**

Biz Polşa şirkətləri ilə həm Azərbaycanda, həm də Polşada tərəfdaş qismində müxtəlif layihələrdə çalışmaq istəyirik. Biz investisiya qoyuluşu ilə bağlı layihələrdə iştirak etmək istəyirik. Biz Polşa şirkətlərini Azərbaycanda həyata keçirilməkdə olan enerji, nəqliyyat, tikinti layihələrində tərəfdaş olmağa dəvət edirik. Biz onları podratçı qismində dəvət edirik. Biz şirkətləri Azərbaycanda və regionda bazar potensialı olan sahələrə sərmayə yatırmağa dəvət edirik. Hesab edirəm ki, belə yaxşı siyasi münasibətlərə və iqtisadi əməkdaşlıq üzrə aydın təsəvvürə malik olmaqla biz çox qısa müddət ərzində uğur qazana, ticarət dövriyyəsini, zənnimcə, bir neçə dəfə artıra və biznes icmaları üçün çox möhkəm təməl yarada bilərik.

Azərbaycan sərhədlərimizdən çox kənara uzanan olduqca önəmli enerji və nəqliyyat layihələrini həyata keçirir. Nəqliyyat sahəsində, cənab Prezidentin qeyd etdiyi kimi, biz artıq dəhlizlərin yaradılması üzrə birgə fəaliyyətə başlamışıq. Azərbaycan nəqliyyat dəhlizlərinin yaradılması üzərində uzun illərdir ki, çalışırdı və indi bütün zəruri nəqliyyat infrastrukturu artıq yaradılmışdır. Bizim bütün qonşularımızla şimal, cənub və qərb istiqamətində dəmir yolu əlaqəmiz var. Bizim bütün təyyarələri qəbul edə bilən altı beynəlxalq hava limanımız var. Bizim yükdaşıma donanmamız dünya miqyasında fəaliyyət göstərən ən aparıcı yükdaşıma donanmalarından biridir. Ölkəmiz regionla ən yeni magistrallar şəbəkəsi ilə birləşir. Biz daşımaların həcmini Xəzər dənizində yeni tikilmiş ən böyük liman vasitəsilə artırırıq. Onun birinci mərhələsi artıq fəaliyyət göstərir və növbəti il dəniz limanının tikintisinin tamamlanması bizə ən azı ildə 15 milyon ton yük və bir milyon ton konteyneri yükləyib-boşaltmaq imkanını verəcəkdir. Artıq Çindən Avropaya gedən sınaq konteyner qatarları Azərbaycandan keçir. Beləliklə, Şərq-Qərb nəqliyyat dəhlizi demək olar ki, icra edilib. Azərbaycan nəinki təkcə ölkə daxilinə sərmayə yatırmış, eyni zamanda, Gürcüstanda dəmir yolunu tikmək üçün 700 milyon dollardan çox maliyyə dəstəyi göstərmişdir. İndiki mərhələdə biz İranda dəmir yolunu tikmək üçün maliyyə dəstəyinin göstərilməsi məqsədilə iranlı qonşularımızla danışıqların ən son mərhələsindəyik. Bu dəmir yolu İran dəmir yollarını bizim dəmir yolları ilə birləşdirəcəkdir. Beləliklə, biz çoxsaylı dəhliz formatını, Azərbaycan ərazisindən keçən, Şimali Avropadan Hindistana qədər uzanan Şimal-Cənub və Çindən Qərbi Avropaya qədər uzanan Şərq-Qərb dəhlizlərini yaratmış olacağıq.

Polyak dostlarımızla üzərində çalışdığımız digər bir layihə isə Cənub-Qərb dəhlizidir. Bunu cənab Prezident də qeyd etmişdir və mən çox şadam ki, Polşa bizim tərəfdaşımızdır.

Həyata keçirdiyimiz və Avropada çox yüksək səviyyədə dəstəklənən digər bir vacib layihə “Cənub Qaz Dəhlizi” layihəsidir. Bu gün bu layihə Avropaya qazın çatdırılması üçün yeganə yeni mənbədir. Cənub Qaz Dəhlizi Azərbaycanın bir neçə il bundan öncə başladığı layihədir. Bu, dəyəri 40 milyard dollar təşkil edən və demək olar ki, artıq tamamlanan bir layihədir. Bizə bu layihəni 100 faiz tamamlamaq üçün 2-3 il lazımdır. İndi bu layihənin müxtəlif seqmentlərinin icrası 40-95 faiz arasındadır. Bu, Avropaya təbii qazın çatdırılması üçün digər bir mənbə olacaqdır. Bu, enerji şaxələnməsi, enerji təhlükəsizliyi, Avropa bazarlarına təbii qazın davamlı çatdırılması deməkdir. Biz cənab Prezidentlə bu sahədə əməkdaşlığın perspektivlərini müzakirə etdik. Azərbaycan Avropa bazarlarına neftin çatdırılmasında artıq etibarlı tərəfdaşdır. Bizim Polşa ilə əməkdaşlığımız da çox uğurludur. Mən bir daha Polşa şirkətlərini bizim tərəfdaşımız olmağa dəvət edirəm.

* * * * *

Biznes forumda iqtisadiyyatın müxtəlif sahələrini təmsil edən 150-dən çox, o cümlədən Azərbaycandan 60-dan artıq iş adamı iştirak edib.

Forum çərçivəsində Azərbaycanın və Polşanın müxtəlif biznes qurumları və şirkətləri arasında ümumilikdə beş müqavilə və əməkdaşlıq memorandumu imzalanıb.



# Məcburi köçkün ailələrinə Masazır qəsəbəsində yeni mənzillər verildi




Qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması layihəsinin icrası çərçivəsində iyunun 27-də Abşeron rayonunun Masazır qəsəbəsində yeni mənzillərin verilməsi mərasimi keçirilib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva mərasimdə çıxış etmişdir. O, demişdir:

- Ramazan ayı dünya müsəlmanlarını sülh və birlik yoluna, xeyirxah əməllərə, saf niyyətlərə, mərhəmətə və mənəvi kamilliyə dəvət edir. Ramazan ayı bizim hər birimizi ehtiyacı olan, çətinliklərlə üzləşən insanlara yardım etməyə dəvət edir. Bugünkü görüşümüz bu baxımdan rəmzi məna daşıyır. Ermənistanın işğalçı siyasətindən əziyyət çəkən soydaşlarımızın bir qismi bu gün yeni mənzillərlə təmin olunur, onların yaşayış şəraiti yaxşılaşır. Sizin həyatınızda yeni dövr başlayır. Sizin həyat tərziniz yaxşılaşacaq. Mən bu münasibətlə sizi ürəkdən təbrik edirəm, yeni mənzillərinizdə sizə xoşbəxt ömür arzulayıram.

Ermənistanın artıq 20 ildən çoxdur ki, davam edən işğalçı siyasəti nəticəsində ölkəmizdə bir milyon qaçqın və məcburi köçkün mövcuddur. Bu insanların problemlərinin həlli, onların yaşayış şəraitinin yaxşılaşdırılması, iş, təhsil, tibb və digər xidmətlərlə təmin edilməsi Azərbaycan dövlətinin daim diqqət mərkəzindədir. İyirmi ildən çoxdur ki, bu sahədə ardıcıl olaraq bütün lazımi tədbirlər həyata keçirilir, addımlar atılır. Bildiyiniz kimi, - baxmayaraq ki, müstəqilliyimizin ilk illərində dövlətimiz böyük çətinliklərlə üzləşmişdir, - Azərbaycan hökuməti ölkəmizdə mövcud olan bütün çadır şəhərciklərini qısa bir zamanda ləğv etdirmişdir. Azərbaycanda məcburi köçkün ailələri üçün 100-dək müasir yaşayış kompleksi inşa olunmuşdur. Bu qəsəbələrdə bütün lazımi infrastruktur yaradılmışdır. Qəsəbələr məktəb və bağçalarla təmin olunmuşdur. Dörd yüz mindən çox məcburi köçkün iş yeri ilə təmin edilmişdir. Bu gün də soydaşlarımızın işlə təmin olunması sahəsində dövlət proqramları həyata keçirilir. Bir daha qeyd etmək istəyirəm ki, bu, Azərbaycan dövləti üçün ən ağır, ən vacib problemdir. Azərbaycan dövləti bu problemin həlli üçün bütün lazımi tədbirləri görür və bu siyasət bundan sonra da davam etdiriləcəkdir.

Mən öz fəaliyyətimdə sosial problemlərin, xüsusilə də qaçqın və məcburi köçkün ailələrinin problemlərinin, çətinliklərinin həllinə xüsusi diqqətlə yanaşıram. Birinci vitse-prezident vəzifəmdə ilk müşavirəm məhz bu problemlərin həllinə yönəlmişdir. Bizim qarşımızda duran məqsəd ilkin mərhələdə Bakı və Sumqayıt şəhərlərində yararsız, qəzalı, yarımçıq tikilmiş binalarda məskunlaşmış dörd min məcburi köçkün ailəsini yeni mənzillərlə təmin etməkdir. Bunun üçün bütün lazımi göstərişlər verilib, artıq tədbirlər görülür və əminəm ki, biz bu məqsədimizə nail olacağıq. Bu ilin may ayında Qaradağ rayonunun Lökbatan qəsəbəsinin yaxınlığında 1026 ailəlik yeni yaşayış qəsəbəsinin təməli qoyuldu. Bu qəsəbədə bütün lazımi infrastruktur - tibb məntəqəsi, 600 şagird yerlik məktəb, uşaq bağçası inşa olunacaq. Burada artıq inşaat işləri başlayıb. Əminəm ki, işlər qısa bir zamanda başa çatdırılacaq və bu gün çox ağır vəziyyətdə yaşayan daha 1026 məcburi köçkün ailəsi yeni mənzillərlə təmin olunacaq.

Azərbaycan dövləti tərəfindən bu tədbirlərin icrası üçün, ümumilikdə, 6 milyard manatdan çox vəsait ayrılmışdır. Bu gün Azərbaycanda qaçqın və məcburi köçkünlərə dövlət tərəfindən ayrılmış vəsait nisbət etibarilə dünyanın ən yuxarı göstəriciləri arasındadır. Azərbaycan dövlətinin bu sahədə əldə etdiyi nailiyyətlər, bizim təcrübəmiz artıq dünyada bir model kimi qəbul olunur.

Bir daha qeyd etmək istəyirəm ki, bu gün Azərbaycan qüdrətli, güclü dövlətdir və qarşıda duran məsələlərin həlli üçün bütün lazımi addımlar atılır, bütün lazımi tədbirlər həyata keçirilir. Çox xoşdur ki, dövlətlə yanaşı, biznes strukturları da, iş adamları da bütün cəmiyyətimiz üçün vacib olan bu probləmə biganə qalmayıb və onlar da bu ağır problemin həllinə öz töhfələrini verməkdədirlər.

Bu gün Xəzər rayonunun Şüvəlan qəsəbəsində yararsız binada və Xətai rayonunda yarımçıq tikilmiş binada məskunlaşmış 214 ailə Masazır və Mehdiabad qəsəbələrində yeni inşa olunmuş və tam təmirli mənzillərə köçürülür. Məhz iş adamlarının yardımı ilə bu gün 214 ailənin yaşayış şəraiti yaxşılaşacaq. Hesab edirəm ki, bu, çox təqdirəlayiq bir haldır. Ümidvaram ki, digər iş adamları, ölkəmizdə fəaliyyət göstərən digər biznes strukturları da gələcəkdə bu təşəbbüsə qoşulacaqlar. Bu, bizim cəmiyyətimizin birliyinin göstəricisidir, eyni zamanda, Azərbaycanın ən gözəl ənənələrindən biri olan xeyriyyəçilik ənənəsinin davamıdır.

Mən hesab edirəm ki, ölkəmizdə fəaliyyət göstərən biznes strukturları, iş adamları, özəl sektor sosial məsuliyyət haqqında ciddi düşünməli və cəmiyyətimizi narahat edən problemlərin həllində fəal iştirak etməlidirlər. Xüsusilə də onlar bizim hər birimiz üçün ən ağır problem olan qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitini yaxşılaşdırmaq işində iştirak etməlidirlər.

Sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Masazır qəsəbəsində məcburi köçkün ailələri üçün yeni mənzillərdə yaradılan şəraitlə tanış olmuşdur.

# Parlamentdə “2017-ci il dövlət büdcəsi haqqında” Qanunda dəyişikliklər edilməsi barədə layihə müzakirə olunub



İyunun 30-da Milli Məclisin növbədənkənar sessiyasının sonuncu plenar iclasında 2017-ci il dövlət büdcəsi haqqında Qanunda dəyişikliklər edilməsi barədə layihə müzakirə olunub.

İclasda iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə qanun layihəsindən danışıb.

Sonra “Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında” Qanunda dəyişikliklər edilməsi barədə məlumat verən maliyyə naziri Samir Şərifov diqqətə çatdırıb ki, sosial mənzil tikintisi ilə bağlı əhalinin ehtiyaclarının daha geniş şəkildə əhatə edilməsi və vətəndaşların güzəştli şərtlərlə mənzil əldə etməsi ilə bağlı xərclərin artırılması üçün 50 milyon manat, ölkəmizin 14 rayon və şəhəri üzrə yeni tikilmiş uşaq bağçalarının istismara verilməsi ilə bağlı xərclərin maliyyələşdirilməsinə və hazırda fəaliyyətdə olan uşaq bağçalarının, uşaq texniki yaradıcılıq mərkəzlərinin, ilk peşə-ixtisas təhsili müəssisələrinin və bəzi təşkilatlar üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi üçün 68 milyon manat vəsait yönəldiləcək. Bundan başqa, 2016-cı il ərzində SOCAR tərəfindən istehsal olunan təbii qazın daxili bazarda maya dəyərindən aşağı qiymətə satışına görə yaranmış zərərin kompensasiyası üçün dövlət büdcəsindən 250 milyon manat subsidiyanın ayrılması məqsədəuyğun hesab edilib. Həmçinin, lisenziyası ləğv edilmiş 11 bank üzrə əmanətçilərin qorunan əmanətlərinin 100 faiz ödənilməsi üçün Əmanətlərin Sığortalanması Fondu tərəfindən cəlb edilmiş kreditlərin bağlanması üçün Fondun nizamnamə kapitalının 546 milyon manat artırılması nəzərdə tutulub.

Bildirilib ki, 2017-ci ilin yenidən baxılacaq dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinə əlavə 191 milyon manat vəsait yönəldiləcək, bu da təsdiq edilmiş göstəriciyə nisbətən 7,6 faiz çoxdur.

2017-ci il dövlət büdcəsinə yenidən baxılma zamanı xarici dövlət borclanmasının yuxarı həddinin artırılması, yəni, “Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyətinin sağlamlaşdırılması tədbirləri çərçivəsində Bankın 2383,4 milyon ABŞ dolları məbləğində dövlətin üzərinə keçəcək borclarının ödənilməsi məqsədilə avrobondların emissiyası həyata keçiriləcək. Bununla əlaqədar olaraq, 2017-ci il üzrə qanunla təsdiq edilmiş xarici dövlət borclanmasının yuxarı həddi 4 milyard manat artırılaraq 4,5 milyard manata çatdırılacaq.

Bundan başqa, ölkədə yol infrastrukturunun tikintisi və yenidən qurulması, həmçinin onlara xidmətlə bağlı xərclərin 36 milyon artırılması nəzərdə tutulub.

Ölkəmizin xaricdəki diplomatik nümayəndəliklərində və konsulluqlarında çalışan əməkdaşlarının əməkhaqlarının tənzimlənməsi, həmçinin bu səfirlik və konsulluqlarda təsis olunacaq ticarət nümayəndələrinin saxlanılması üçün 14,1 milyon manat, dövlət büdcəsinin ehtiyat fondunun xərclərinin 1,5 milyon manat və digər zəruri xərclərin 5 milyon manat artırılması nəzərdə tutulur.

Yenidən baxılma ilə 2017-ci il dövlət büdcəsi xərclərinin 1041 milyon manat artırılaraq 17941 milyon manata çatdırılması nəzərdə tutulur ki, bu da 2017-ci il üçün təsdiq edilmiş dövlət büdcəsinin xərclərinə nisbətən 6,2 faiz çox olacaq.

2017-ci ilin yenidən baxılacaq dövlət büdcəsinin gəlirləri gözlənilən ümumi daxili məhsulun 25,2 faizini təşkil etməklə mütləq ifadədə 16766 milyon manat proqnozlaşdırılır ki, bu da 2017-ci ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 511 milyon manat və ya 3,1 faiz çoxdur.

Həmin artım Azərbaycan Respublikası Mərkəzi Bankının mənfəətindən ayırmalar üzrə 250 milyon manat, Vergilər Nazirliyi üzrə 135 milyon manat, Dövlət Gömrük Komitəsi üzrə 50 milyon manat və büdcə təşkilatlarının büdcədənkənar gəlirləri üzrə 76 milyon manat təşkil edəcək.

Çıxış edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov diqqətə çatdırıb ki, “Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında” Qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsinə Hesablama Palatası da rəy verib. Palatanın rəyi müsbətdir.

Müzakirələr zamanı çıxış edən Milli Məclisin deputatları əhalinin sosial rifahının yaxşılaşdırılmasına xidmət edəcək bu dəyişiklikləri yüksək qiymətləndiriblər.

# Qeyri-neft sektoruna investisiya qoyuluşları artıb



2016-cı ildə Rusiya şirkətləri tərəfindən Azərbaycanın qeyri-neft sektoruna investisiya qoyuluşları 22,8 dəfə - 363,2 mln. dollaradək artıb. Bu barədə Dövlət Statistika Komitəsindən məlumat verilib. "İsveçrə, Rusiya və Türkiyə ötən il Azərbaycanın qeyri-neft sektoruna investisiya qoyuluşu həyata keçirmiş əsas xarici investorların üçlüyünə daxil olub", - deyə məlumatda bildirilir. İsveçrə şirkətləri tərəfindən respublikanın qeyri-neft sektoruna 370,5 mln. dollar (2016-cı il ərzində artım 23,6 dəfə), Rusiya şirkətləri tərəfindən 363,2 mln. dollar (artım 22,8 dəfə), Türkiyə şirkətləri tərəfindən 307,5 mln. dollar (artım 39,5%) məbləğində investisiya qoyulub. Statistik məlumatlara görə, Azərbaycanın qeyri-neft sektoruna investisiya qoymuş ən iri investorların beşliyinə Böyük Britaniya (174,4 mln. dollar) və Niderland (127,9 mln. dollar) da daxildir. Bütövlükdə, 2016-cı ildə respublikanın qeyri-neft sektoruna xarici investisiya qoyuluşları 98,3% - 1 mlrd. 706,2 mln. dollaradək artıb.

# İpək Yoluna 8 trilyon dollarlıq investisiya

Çinin tarixi İpək Yolunu canlandırmaq təşəbbüsü olan "Bir Nəsil Bir Yol Layihəsi"-nin 68 ölkədə infrastruktura 8 trilyon dollar məbləğində sərmayə yatırılmasına səbəb olacağı gözlənilir.

Dünya İqtisadi Forumunun məlumatlarına görə, Çinin Dövlət başçısı Şi Cinping tərəfindən 2013-də açıqlanan layihəyə bu ölkənin edəcəyi ümumi investisiya həcminin 900 milyard dollara çatacağı bildirilir.

Yolun üstündə yer alan və aralarında Azərbaycanın da olduğu 68 ölkədə infrastruktur sərmayələrinə xərclənəcək məbləğin isə bütövlükdə 8 trilyon dollara çatacağı proqnozlaşdırılır.

# Naxçıvan Avtomobil Zavodu ucuz avtomobil üçün layihələr hazırlayır

Naxçıvan Avtomobil Zavodu tərəfindən istehsal olunan maşınların daha münasib qiymətə istehlakçılara təqdim olunması ilə əlaqədar layihələr hazırlanır.

“NAZ” Azərbaycanda yeganə müəssisədir ki, avtomobillərin bütün hissələri burada yığılır. Bu da zavodda istənilən modeldə minik və yük avtomobillərinin istehsalına imkan verir. Hazırda istehsal olunan maşınların daha münasib qiymətə istehlakçılara təqdim olunması ilə əlaqədar layihələr hazırlanır. Müəssisədə möhürləmə, qaynaq və boyama sahələrinin yaradılması istiqamətində işlər davam etdirilir. Həmçinin, avtomobilin müəyyən hissələrinin Naxçıvanda istehsal edilməsi nəzərdə tutulur. Xaricdə istehsal olunan avtomobillərdən daha ucuz qiymətə satışa çıxarılan “NAZ-Lifan” markalı minik avtomobillərinə tələbat ildən-ilə artır”, - Nazirliyin məlumatında deyilir.

# Füzuli rayonunda yeni aqropark yaradılır

Füzuli rayonu ərazisində yeni aqroparkın yaradılmasına başlanılıb.

Layihə rəhbəri Rəcəb Orucov bildirib ki, “Füzuli Aqropark”ın yaradılmasında əsas məqsəd ölkəmizdə idxaldan asılılığın azaldılması, ərzaq təhlükəsizliyinin təmin olunması üçün strateji əhəmiyyətli kənd təsərrüfatı məhsullarının yetişdirilməsidir.

2700 hektar ərazini əhatə edəcək aqroparkda müasir pivot suvarma sistemi qurulacaq. Aqroparkın su təminatı Yuxarı Mil kanalı vasitəsilə həyata keçiriləcək. Birinci mərhələdə 1000 hektar sahə istifadəyə veriləcək ki, burada ölkəmizin strateji maraqlarına uyğun olaraq soya, qarğıdalı, taxıl, pambıq və digər bitkilər becəriləcək.

Aqroparkın ərazisində, həmçinin 1000 başlıq müasir intensiv südlük istiqamətli heyvandarlıq kompleksi də yaradılacaq. “Füzuli Aqropark”ın yaradılması layihəsinin icrasında İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə dövlətin güzəştli kreditlərindən istifadə olunacaq.



Artıq layihənin icra olunduğu əraziyə 11 ədəd pivot sistem gətirilib. İnfrastrukturun yaradılmasına, pivotların montaj işlərinə başlanılıb. Layihənin həyata keçirildiyi ərazidəki təsərrüfat subyektləri ilə müqavilələr bağlanılıb, inventarizasiya aktları tərtib olunub. Onlara kompensasiya verilir və əmlakları müvafiq yerə köçürülür.

Aqroparkın yaradılması, eyni zamanda, məcburi köçkün ailələrin iş təminatı ilə bağlı sosialyönümlü bir layihədir. Belə ki, aqroparkın istifadəyə verilməsi ilə 80-ə yaxın məcburi köçkün işlə təmin olunacaq.

Layihənin birinci hissəsinin bu il, bütövlükdə isə 2018-ci ildə başa çatdırılması nəzərdə tutulur.

# AZƏRBAYCANDA ÜMUMİ HESABATLILIQ STANDARTININ TƏTBİQİNƏ BAŞLANILIR



**Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin baş direktoru Zaur Fətizadənin müsahibəsi**

**- Zaur müəllim, maliyyə məlumatlarının daha səmərəli mübadiləsi üçün Azərbaycanda Ümumi Hesabatlılıq Standartının (CRS) tətbiqi nəzərdə tutulub. CRS nədir və bu standart hansı ölkələrdə tətbiq edilir?**

- Ümumi Hesabatlılıq Standartı (Common Reporting Standard - CRS) vergitutma məqsədləri üçün müxtəlif dövlətlər tərəfindən xarici şəxslərin oradakı maliyyə institutlarında olan hesabları haqqında məlumatların toplanması və həmin şəxslərin rezident olduqları dövlətlərlə avtomatik mübadiləsinin vahid prinsiplərini tənzimləyir. Bu standart 2014-cü ildə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən hazırlanıb.

Maliyyə məlumatlarının mübadiləsi Avropa Şurası və OECD-nin «Vergi məsələlərində qarşılıqlı inzibati yardım haqqında» çoxtərəfli Konvensiyası əsasında aparılır. Azərbaycan bu Konvensiyanı 2003-cü ildə, ona düzəlişlər edilməsi haqqında Protokolu isə 2014-cü ildə imzalayıb. Konvensiya 105 ölkə ilə vergi məqsədləri üçün məlumat mübadiləsinin aparılmasına imkan verir.

Konvensiyanın 6-cı maddəsi avtomatik məlumat mübadiləsinin aparılmasını, yəni vergi ili bitdikdən sonra konvensiyanın üzvü olan bir dövlət tərəfindən digər üzv dövlətin fiziki və hüquqi şəxslərinin həmin dövlətdəki maliyyə institutlarında olan hesabları və əməliyyatları haqqında məlumatların ümumiləşdirilərək digər dövlətə göndərilməsini nəzərdə tutur. Yeni standarta əsasən, konvensiyaya üzv olan dövlətlərin səlahiyyətli orqanları «Maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsi haqqında səlahiyyətli orqanlar arasında Çoxtərəfli Razılaşma»nı imzalamaqla, mübadiləni orada qeyd olunmuş vahid formatda aparmaq barədə razılıq əldə edirlər. Razılaşma 2014-cü ildə Berlində imzalanmaya açıq elan olunub və indiyədək 101 dövlətin səlahiyyətli orqanı həmin sənədə qoşulub.

Razılaşmaya qoşulan səlahiyyətli orqanlardan bir qismi 2017-ci ildə, digər qismi isə gələn ildən başlayaraq məlumat mübadiləsinin Ümumi Hesabatlılıq Standartına (CRS) uyğun aparılmasına hazır olduqlarını bəyan edib. Mübadiləyə hələ hazır olmayan dövlətlər, əsasən, bunun üçün lazımi daxili qanunvericilik və elektron infrastruktura malik olmayan dövlətlərdir.

**- Bu standart çərçivəsində hansı məlumatlar mübadilə olunur və hesabatda nə kimi məlumatlar öz əksini tapmalıdır?**

- CRS-ə müvafiq olaraq, illik avtomatik əsaslarda maliyyə institutlarında olan hesablar üzrə müvafiq məlumatlar, o cümlədən təqvim ilinin sonuna hesabın qalığı, il ərzində əldə edilmiş gəlirlərin ümumi məbləği və CRS ilə müəyyən olunan digər zəruri məlumatlar mübadilə ediləcək.

Nazirlər Kabinetinin 3 iyun 2015-ci il tarixli qərarı ilə xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikasının ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların bu dövlətlərin səlahiyyətli orqanlarına verilməsi hədləri və qaydaları artıq təsdiq edilib. Həmin sənəddə maliyyə institutları tərəfindən elektron hesabatda əks olunmalı məlumatlar, e-hesabatın Vergilər Nazirliyinə təqdim edilməsi forması və müddəti, e-hesabatın dəyişdirilməsi və digər məsələlər öz əksini tapıb.

**- Ölkəmiz bundan əvvəl də oxşar bir sənəd - Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktı, qısaca FATCA adlanan məlumat mübadiləsi sisteminə qoşulmuşdu. Mümkünsə, CRS və FATCA arasında əsas fərqlərin nədən ibarət olduğunu şərh edərdiniz...**

- 2015-ci ildə «Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında vergi tələblərinin yerinə yetirilməsi üzrə beynəlxalq qaydalara əməl olunmasının yaxşılaşdırılması və Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktı (FATCA) tələblərinin həyata keçirilməsi barədə Saziş» (Hökumətlərarası Saziş) imzalanıb və həmin sənəd 2015-ci ilin 5 noyabr tarixindən qüvvəyə minib.

FATCA Azərbaycanda olan ABŞ vətəndaşları və rezidentlərinin maliyyə hesabları barədə məlumatların ABŞ tərəfinə, eləcə də ABŞ-da olan Azərbaycan rezidentlərinin maliyyə hesabları barədə məlumatların ölkəmizə ötürülməsini nəzərdə tutur. Bu baxımdan, FATCA üzrə iki yurisdiksiya (ABŞ-Azərbaycan) arasında avtomatik məlumat mübadiləsi həyata keçirilir.

FATCA-dan fərqli olaraq, CRS Çoxtərəfli Saziş əsasında tənzimləndiyindən, tərəfdaş yurisdiksiyalarla maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsini nəzərdə tutur. Tərəfdaş yurisdiksiyaların sayı hər bir ölkənin öz seçimi əsasında müəyyənləşir və Çoxtərəfli Sazişə qoşulmuş bütün ölkələri əhatə edir.

CRS - OECD-nin Qlobal Forumu tərəfindən FATCA-nın prinsipləri əsasında hazırlanıb. Bu baxımdan, bir çox yoxlama prosedurlarına yanaşma, əsasən, eynilik təşkil edir.

**- CRS əsasında maliyyə məlumatlarının mübadiləsi zamanı bütün maliyyə institutları hesabat verməlidirmi? Hesabat verməli olan maliyyə institutlarının vəzifələri nədən ibarətdir?**

- Mövcud qanunvericiliyin müddəalarına əsasən, bank fəaliyyəti, həyatın yığım sığortası və annuitet sığortası fəaliyyəti, depozitar fəaliyyəti, qiymətli kağızların (veksellər, depozitar qəbzi və sair), törəmə maliyyə alətlərinin, xarici valyutaların məzənnə, faiz dərəcəsi və indeks alətləri, qiymətli kağızlarla ticarət və ya əmtəə üzrə fyuçerslərin müştəri üçün və ya müştərinin adından aparılan ticarət fəaliyyəti və investorların portfellərinin idarə edilməsi fəaliyyəti kimi fəaliyyətlərdən ən azı birini həyata keçirən vergi ödəyicisi maliyyə institutu hesab olunur.

Maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan, ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə uyğun olan maliyyə institutları müvafiq qaydada hesabat verməlidirlər. Maliyyə institutlarının əsas vəzifəsi beynəlxalq müqavilələrin tələblərindən irəli gələrək CRS üzrə hesabat verilməli hesabları müəyyənləşdirmək, bu sahədə hərtərəfli yoxlama prosedurları tətbiq etmək və bu hesablar barədə məlumatları yuxarıda qeyd olunan qərarla müəyyən edilmiş hədlərdə və qaydada Vergilər Nazirliyinə ötürməkdir.

**- Ölkəmizdə CRS-in tətbiqinə nə vaxtdan başlanılır və Azərbaycanın digər tərəfdaş yurisdiksiyalarla məlumat mübadiləsi nə vaxta planlaşdırılır?**

- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il 4 avqust tarixli sərəncamı ilə təsdiq edilmiş «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»ndə ölkə hüdudlarından kənarda əldə olunmuş gəlirlərin vergiyə cəlb olunmasında şəffaflığı təmin etmək və səmərəli vergi nəzarəti həyata keçirmək üçün digər dövlətlərlə maliyyə məlumatlarının avtomatik mübadiləsi məqsədilə hökumətlərarası müqavilələrin bağlanması nəzərdə tutulub.

Sərəncamın icrasını təmin etmək məqsədilə «Maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsi haqqında səlahiyyətli orqanlar arasında Çoxtərəfli Razılaşma»ya qoşulmaq barədə bəyanat imzalanıb. Razılaşmaya qoşulmaqda əsas məqsəd Çoxtərəfli Razılaşmanın məlumat mübadiləsinin aparılma müddəti və qaydasına əsasən, tərəfdaş yurisdiksiyaların rezidentləri olan fiziki və hüquqi şəxslərin hesabat verilməli hesablarının qalığı (dəyəri) və digər məlumatların ümumiləşdirilərək həmin yurisdiksiyalara göndərilməsi, eyni zamanda, bu yurisdiksiyalarda Azərbaycan Respublikasının rezidentləri olan fiziki və hüquqi şəxslərin hesabat verilməli hesablarının analoji məlumatlarının mübadilə edilməsidir.

İmzalanmış bəyanata əsasən, Azərbaycanda CRS-ın tətbiqinə 1 iyul 2017-ci il tarixdən başlanılır. 1 iyula qədər maliyyə institutlarında mövcud olan hesablar «əvvəlcədən mövcud olan hesablar» sayılır. Standartın tətbiqinə başlanılan tarixdən «əvvəlcədən mövcud olan hesablar»ın hesabat verilməli hesab olub-olmadığını maliyyə institutları sərəncamlarında olan və mənbəyi bəlli olan mövcud məlumatlar əsasında müəyyən edəcəklər. 1 iyul 2017-ci il tarixdə və ondan sonra maliyyə institutlarında açılmış hesablar isə «yeni hesab» sayılır. Bu tarixdən sonra maliyyə institutlarına hesab açmaq üçün müraciət etmiş hər bir şəxs özünüqiymətləndirmə anketi dolduracaq. Qeyd olunan anket maliyyə institutları tərəfindən hesabın hesabat verilməli hesab olduğunu müəyyən etmək üçün aparılacaq araşdırmalarda istifadə olunacaq.

CRS-ə uyğun olaraq, Azərbaycanın digər tərəfdaş yurisdiksiyalarla məlumat mübadiləsi 2018-ci ilin sentyabr ayında başlanılması nəzərdə tutulub.

**- CRS-ın tətbiqindən gözlənilən nəticələr nədən ibarətdir?**

- İlk növbədə, CRS-in tətbiqi vergitutma baxımından şəffaflığın artırılması və vergidən yayınmanın qarşısının alınması məqsədilə vergi məlumatlarının mübadiləsi sahəsində əməkdaşlığın güclənməsinə və ümumiyyətlə, ölkələr arasında ikitərəfli əlaqələrin inkişafına mühüm töhfə verəcək. Bununla yanaşı, vergi ödəyiciləri, həmçinin digər vətəndaşlar tərəfindən büdcədən yayındırılmış vergi məbləğlərinin qarşılıqlı əməkdaşlıq və məlumat mübadiləsi vasitəsilə büdcəyə ödənilməsinin təmin edilməsi mümkün olacaq.

Məlum olduğu kimi, bir sıra vergidən yayınmaya meyilli şəxslər dövriyyələrin gizlədilməsi, verginin tam həcmdə hesablanmaması məqsədilə ölkənin hüdudlarından kənarda yerləşən banklarda bank hesabları açır, əməliyyatlarını həmin hesablar vasitəsilə aparır və yaxud müxtəlif sxemlərdən istifadə etməklə dövlət büdcəsinə çatacaq vergiləri ödəməkdən yayınırlar. Bank hesabları barədə ölkələrarası məlumatların mübadiləsini nəzərdə tutan bu sistemin tətbiqi belə şəxslərin və onların respublikadan kənarda olan bank hesablarının müəyyən edilməsinə imkan verəcək. Bunun nəticəsində vergi orqanı Azərbaycan vətəndaşlarının respublikadan kənarda olan bank hesablarının qalıqları və digər gəlirləri barədə geniş məlumata malik olacaq ki, bu da vergidən yayınma hallarının qarşısının alınmasına, həmin şəxslərin real gəlirlərinin müəyyən olunmasına kömək edəcək.

Azərbaycan Respublikası «Maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsi haqqında səlahiyyətli orqanlar arasında Çoxtərəfli Razılaşma»nı imzalamaqla razılaşmaya qoşulmuş digər ölkələrlə maliyyə institutlarında olan hesablar barədə məlumat mübadiləsini aparmağa açıq olduğunu bəyan etdi. Razılaşmaya əsasən, Azərbaycan Respublikasının vətəndaşlarının xaricdə olan bank hesabları barədə məlumatları almaqla yanaşı, razılaşmaya qoşulmuş digər dövlətlərin vətəndaşlarının Azərbaycan Respublikasının maliyyə institutlarında olan hesabları barədə analoji məlumatları həmin dövlətlərin müvafiq orqanlarına ötürəcək. Bu da ölkəmizdə digər sahələrdə olduğu kimi, maliyyə sahəsində də şəffaflığın təmin edilməsi istiqamətində yeni bir addım olacaq.

## "AtaBank" uşaq evinin balaca sakinlərini sevindirdi



"AtaBank" ASC Korporativ Sosial Məsuliyyət layihələri çərçivəsində 2017-ci il üçün nəzərdə tutulmuş növbəti xeyriyyəçilik aksiyasını həyata keçirmişdir. Bank tərəfindən Əhmədli qəsəbəsində yerləşən 3 saylı uşaq internat-evinin balaca sakinləri üçün Ramazan Bayramı günlərində əyləncəli viktorina və şən müsabiqəli bayram tədbiri təşkil edilmişdir. Ramazan Bayramı ilə əlaqədar təşkil edilmiş xeyriyyə tədbirinə müğənnilər, sehrbazlar, animatorlar və məzəli klounlar dəvət olunmuşdur.

Beləcə, bank heyəti uşaq evinin balaca sakinləri ilə birlikdə xoş və əyləncəli şəkildə müqəddəs Ramazan Bayramını qeyd etmişdir.

Bayram şənliyi ilə əlaqədar "AtaBank" ASC-nin İdarə Heyəti sədrinin müavini Rauf Hüseynov bildirdi ki, "Bu cür tədbirlər dövlətimizin sosial siyasətinə uyğun olaraq, Korporativ Sosial Məsuliyyət xarakteri daşıyır və cəmiyyətimizin valideyn himayəsindən məhrum olan uşaqlarına mənəvi dəstək, onlardan diqqət və qayğını əsirgəməmək məqsədi ilə təşkil edilir. Uşaqlar bizim gələcəyimizdir, onların ehtiyaclarına və ümidlərinə həmişə diqqətlə yanaşmaq lazımdır!"

Bayram şənliyində uşaqlarla birlikdə aktiv iştirak edən bankın Kommunikasiyalar və PR şöbəsinin rəisi Oruc İbrahimov isə əlavə olaraq qeyd etdi ki, daim sosial məsuliyyətə önəm verən "AtaBank" ASC tərəfindən bu cür tədbirlərin təşkili bundan sonra da davam etdi-

## Nağd pul və bank ehtiyatları artır



30.06.2017-ci il tarixinə pul bazası 8 milyard 274.5 milyon manat təşkil edib.

İyunda pul bazası 485,8 milyon manat artıb. Belə ki, mayın sonunda pul bazası 7 milyard 788,7 milyon manat idi.

Pul bazası dedikdə pul kütləsinin Mərkəzi Bank tərəfindən qısa müddət ərzində dəyişdirilə bilən hissəsi nəzərdə tutulur. Pul bazasının tərkibinə dövriyyədə olan nağd pul və bank ehtiyatları (kommersiya banklarının Mərkəzi Bankdakı müxbir hesablarının qalıqları) daxildir. Pul kütləsi dövriyyədə olan nağd və qeyri-nağd ödəniş vasitələrinin məcmusudur.

## Bakıda illik inflyasiya...



Bu ilin yanvar-may ayları ərzində Bakıda istehlak məhsullarının və xidmətlərin qiymətləri yanvar-may aylarına nisbətən eyni səviyyədə qalıb.

Bakı Şəhəri Statistika İdarəsindən verilən məlumata görə, bu müddət ərzində ərzaq məhsullarının qiymətləri 1,1%, xidmətlər üzrə qiymətlər 1,3% artıb.

Qeyri-ərzaq məhsullarının qiymətləri dəyişməyib.

Qeyd edək ki, yanvar-aprel ayları ərzində paytaxtda istehlak məhsullarının və xidmətlərin qiymətləri əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,4%, o cümlədən ərzaq məhsullarının qiymətləri 0,7%, qeyri-ərzaq məhsullarının qiymətləri 0,2%, xidmətlər üzrə qiymətlər 0,4% artıb.

## «Baku Fashion Club»təşkilatının təqdimatı keçirildi




29 iyun tarixində "Excelsior Hotel & Spa Baku" otelində dəb sahəsində yeni olan "Baku Fashion Club"ın təqdimatı keçirildi. BFC təşkilatı Azərbaycanın moda sahəsinin bütün nümayəndələrini "öz qanadı altına" yığmağı planlaşdırır. Onların arasında geyim və aksessuar dizaynerləri, fəşn-bloggerlər, populyar modellər, jurnalistlər, moda butiklərinin və şou-rumların nümayəndələri, bayerlər, stilist-imicmeykerlər və s. olacaqlar. Klubun iştirakçıları, həmçinin Azərbaycan modasının həvəskarları və pərəstişkarları da ola bilər.

Müntəzəm olaraq müştərək görüşlər keçiriləcək, burada klubun iştirakçıları sıxılmadan, dostluq şəraitində sərbəst tanış ola, ünsiyyət qura, təcrübə və fikir mübadiləsi apara, maraqlandıqları məsələləri müzakirə edə biləcəklər.

Bununla yanaşı, həm yaxın, həm də uzaq xarici ölkələrdən fəşn-sahə nümayəndələrini dəvət etmək planlaşdırılır. Baku Fashion Club klubunun təşkilatı olan "BFC" - FMS Models-in prezidenti və Baku Fashion Night moda layihəsinin təşkilatçısı Lyubov Qutorova-Poyraza məxsusdur. "Bu fikir çoxdan mənim beynimdə dolaşırdı, amma 2005-ci ildə FMS Models model agentliyinin, 2014-cü ildə Baku Fashion Night layihəsinin (hazırda Bakıda keçirilən moda həftələrinin müjdəçisi) açılışında olduğu kimi, münasib vaxt gözləyirdi. Bu dəfə xahiş edirəm, sevin və təşrif buyurun – "Baku Fashion Club"a. Bu klub bizə sadəcə zəruridir, əminəm ki, çox yaxın zamanda o, bütün iştirakçıları üçün öz bəhrəsini verəcək. Canlı dialoq – bütün problemlərin həllinin açarıdır!!!», - deyə Lyubov Qutorova-Poyraz qeyd edib".

Tədbirdə Azərbaycanın əməkdar incəsənət xadimi Fəxriyyə Xələfova, məşhur Azərbaycan dizayneri Gülnarə Xəlilova, Azərbaycanın əməkdar artisti Tünzalə Ağayeva, əməkdar artist Mələk Abbaszadə, Azərbaycanı "Eurovision-2012" mahnı müsabiqəsində təmsil edən müğənni Səbinə Babayeva və digər qonaqlar iştirak etdilər.

# Приступили к деятельности филиал «Хатаи» и представительство «Баил» ОАО «AtaInsurance»




ОАО «AtaInsurance» принимая во внимание рост спроса к страховым услугам и в целях оказания клиентам оперативных и качественных страховых услуг ввело в эксплуатацию новые филиал «Хатаи» и представительство «Баил»

Открытый новый филиал «Хатаи» приступил к своей деятельности по адресу: город Баку, Наримановский район, ул. Ак. Гасана Алиева, 105. Новое представительство «Баил» функционирует по адресу: город Баку, Сабаильский район, ул. А. Ягубова, 18.

Просторные и удобные здания полностью отремонтированы, оснащены современным технологическим оборудованием, и приведены в состоянии полной готовности для приема клиентов. Расположение филиала и представительства по доступным адресам, созданные в офисах прекрасные условия, послужит удобству и удовлетворенности клиентов.

Входящее в Группу Компаний «АтаХолдинг», ОАО «AtaInsurance» , работает на рынке страхования с 2004 года. Компания, обладая активами почти 35 млн. манатов, предоставляет своим клиентам услуги по 28 видам страхования – 24 добровольного и 4 обязательного. «AtaInsurance» также имеет лицензию на осуществление перестрахования. Является основателем и членом Бюро по обязательному страхованию.

В целом, в сеть обслуживания «AtaInsurance» ОАО входят более 40 филиала, представительства и офисов.

# Ректор университета Валенсии: “UNEC очень хороший университет»

Делегация под руководством президента университета Франции Валенсии, профессора АбделхакимаАртибана посетилаUNEC.



Ректор, профессор АдалатМурадов представив гостям информацию об UNEC, отметил, что высшее учебное заведение с численностью около 20 тысяч студентов является самым крупным экономического профиля университетом Южного Кавказа. Согласно рейтинговому агентству QS, UNEC стал четвертым лучшим университетом Восточной Европы и Центральной Азии, определился в числе лучших 200 университетов региона. Затронув вопрос международных отношений UNEC, ректор отметил, что здесь осуществляется программа степени бакалавра Лондонской экономической школы/ Лондонского университета, а также программы двойного диплома университета Монпелье Франции, университета Литвы МиколосаРёмериса.

Президент университета Валенсии, профессор А.Артиба представил информацию об учебных программах руководимого высшего учебного заведения. Он отметил, что в университете подготовка студентов осуществляется в основном в технологическом направлении. Гость выразил удовлетворение в связи с знакомством с UNEC. Отметив, что «UNEC очень хороший университет», А.Артиба с уверенностью подчеркнул, что совместное сотрудничество внесет вклад в улучшении научного и образовательного уровня обоих высших учебных заведений.

# Azercell приняла участие в Карьерной Выставке

Бакинском Университете Бизнеса Государственной службой занятости при Министерстве труда и социальной защиты была проведена карьерная выставка для студентов и выпускников под лозунгом «Первый шаг». Azercell Telekom в очередной раз приняла участие в выставке, проведенной в Бакинском Университете Бизнеса с целью оказать поддержку студентам и выпускникам в их развитии и будущей карьеры. Были представлены три государственных и 47 предприятий, относящихся 44 частным компаниям, с 200 вакантными рабочими местами.



Представители компании Azercell проинформировали выпускников, желающих работать в Azercell, а также участников выставки о текущих вакансиях. Сотрудники отдела кадров рассказали о процедуре приема на работу, Программах Студенческой Стипендии и Стажировки, а также ответили на интересующие выпускников вопросы. Студенты получили возможность ознакомиться с ситуацией на текущем рынке труда и уровнем востребованности их профессий, установить контакты с работодателями, которым, в свою очередь, представилась возможность выбора потенциальных кадров.

Цель проведения мероприятия - дать рекомендации молодежи, ищущей работу в соответствии с их способностями и навыками, оказание помощи в построении дальнейшей карьеры. Отметим, что Azercell Telekom всегда оказывает молодежи поддержку в этом направлении. В последние годы по инициативе компании Azercell регулярно организуются Карьерные Дни. Во время подобных ежегодных мероприятий Azercell встречается с талантливой молодёжью, заинтересованной работать в компании, информирует их о деятельности и основных принципах работы.

# Новые интернет-пакеты от Bakcell для пользователей «YouTube»

Первый Оператор Мобильной Связи и Ведущий Провайдер Мобильного Интернета в Азербайджане – компания Bakcell, представила новые эксклюзивные интернет-пакеты «YouTube», созданные с учетом популярности одной из самых широко распространенных видео платформ современности.



Благодаря этому новому продукту, абоненты Bakcell смогут экономить не только интернет-трафик, но и средства на балансе своего номера, просматривая видео на «YouTube».

Абонентам предлагается два интернет-пакета «YouTube» с разным объемом трафика:

| Пакет | Объем трафика | Код активации | Цена |
|---|---|---|---|
| YouTube 1 | 2 GB | *530*2000#YES | 2 AZN |
| YouTube 2 | 5 GB | *530*5000#YES | 4 AZN |

Срок использования одного пакета составляет 7 дней. По истечении этого периода, стоимость использования мобильного интернета будет вычитаться со средств на балансе номера, в соответствии с используемым тарифом, или с трафика, имеющегося на балансе другого, ранее приобретенного интернет-пакета.

Отметим, что абоненты имеют возможность использовать интернет-пакеты «YouTube» параллельно с другими доступными интернет пакетами. В таком случае, трафик, используемый при просмотре видео на «YouTube», не будет вычитаться с обычного пакета.

Еще одним преимуществом этого нового продукта, является возможность делиться трафиком для просмотра «YouTube» с другими устройствами, посредством функции «Wi-Fi Hotspot».

Более того, абоненты, использующие этот интернет-пакет, смогут также пользоваться бесплатной услугой Wi-Fi от Bakcell. Эта услуга доступна абонентам во многих местах, таких как рестораны, гостиницы, кафе, парки и даже такси (служба такси 189). Более подробную информацию о бесплатной услуге Wi-Fi от Bakcell можно получить на официальной веб-странице: https://www.bakcell.com/ru/bakcell-wi-fi

Компания Bakcell, недавно признанная самой быстрой мобильной сетью в Азербайджане, продолжит радовать своих абонентов самыми инновационными мобильными услугами передачи данных.

# Состоялось сезонное закрытие проекта “Молодежь читает“

В кафе “Starbucks Azerbaijan“, расположенном на площади Фонтанов, состоялось сезонное закрытие проекта "Молодежь читает", представленного в апреле ООО Azercell Telekom для книголюбов. На мероприятии приняли участие чтецы проекта, писатели, чьи произведения были зачитаны до сегодняшнего дня, представители медиа.

Для информации отметим, что проект ставит перед собой цель повысить культуру чтения среди молодежи, способствовать популяризации местных авторов, а также предложить интеллектуальный вид отдыха в нашей динамичной жизни. В дни чтения в кафе “Starbucks Azerbaijan”, расположенных на площади Фонтанов и в Genclik Mall, книголюбам были зачитаны произведения, включенные в приложение Bookmate, представленное Azercell 2 года назад.

Напомним, что чтецы проекта были отобраны на конкурсной основе. Так, молодые люди в возрасте от 18 до 29 лет становились участниками конкурса, отправив в Azercell краткую информацию о себе и аудиозапись своего голоса. Лучшие чтецы в рамках проекта “Молодежь читает“ получили возможность читать книги перед публикой.

Отметим, что до сегодняшнего дня Azercell претворила в жизнь несколько проектов для развития культуры чтения и повышения интереса к книгам в нашей стране. Посредством приложения Bookmate, представленного Azercell в 2015 году, абоненты получили возможность без ограничений читать книги на азербайджанском, русском, английском, турецком и многих других иностранных языках. Мобильная библиотека, представленная Azercell, обеспечивает доступ к более чем 800 000 книгам.




# Отель «Эксельсиор Отель & Спа Баку» в июне на первом месте




Отель «Эксельсиор Отель & Спа Баку» в июне вышел на первое место по количеству информаций в прессе. Согласно исследованию, проведенному компанией “Media Consulting & Services” было опубликовано 135 информаций о деятельности отеля. В июне в прессе было опубликовано 5 пресс-релизов о деятельности отеля «Эксельсиор Отель & Спа Баку».

Компания “Media Consulting & Services” подсчитывает медиа рейтинг компаний по секторам, анализируя по количеству, характеру и содержанию материалы, опубликованные в более 565 источниках, включая 10 телевизионных, 55 печатных и 500 онлайн медиа.

Начальник отдела корпоративных коммуникаций ОАО «АтаХолдинг» Диляра Заманова отметила что, в июне текущего года при организационной поддержке отеля состоялась презентация “Baku Fashion Club” и проведен «Праздник Музыки -2». В июле будет проведена традиционная акция открытия летнего бассейна, презентация 6-ти месячного отчета в сфере PR Группы Компании «АтаХолдинг».

Отель «Эксельсиор Отель & Спа Баку» функционирует с августа 2005 года. Отель включает в себя 1 номер люкс “Imperial”, 2 номера люкс “Royal”, 4 номера люкс “Crown”, 45 номеров делюкс “Heritage” и 9 малых номеров “Duke”, конференц-залы, бизнес-центр, рестораны и бары, оздоровительный центр “Aura”.

# Avropa Birliyinin dəstəyilə layihə çərçivəsində konfrans keçirildi




İyunun 30-da Beynəlxalq Mətbuat Mərkəzində Avropa İttifaqının maliyyə dəstəyi ilə Jurnalistlərin Həmkarlar İttifaqı və Beynəlxalq Jurnalistlər Federasiyası tərəfindən həyata keçirilən "Cənubi Qafqazda jurnalist həmkarlar təşkilatlarının bacarıqlarının inkişaf etdirilməsi" layihəsi çərçivəsində "Azərbaycanda jurnalist həmkarları ittifaqlarının durumu və gələcək inkişaf meyilləri" mövzusunda konfrans keçirilib.

Tədbiri giriş sözü ilə Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli açıb və həyata keçirilən layihədən geniş bəhs edib.

Konfransda çıxış edən Beynəlxalq Jurnalistlər Federasiyasının Layihələr Departamentinin rəhbəri Adrien Collin bildirib ki, layihənin icrası 2014-cü ildə nəzərdə tutulsa da, Azərbaycanda qrantlarla bağlı qanunvericiliyə dəyişikliklərlə əlaqədar bu il başlayıb. Layihə çərçivəsində "Həmkarlar ittifaqı təşkilatı üzvünün məlumat kitabı" və "Əmək hüquqları və onların qorunması mexanizmləri: kollektiv danışıqlar və kollektiv müqavilələr" kitabçaları çap edilib.

Sonra Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşovun sədrliyi ilə "Azərbaycanda sosial dialoq və əmək standartları: Mövcud durum, problemlər, nailiyyətlər və yeni çağırışlar" adlı birinci sessiya keçirilib. Ə.Amaşov beynəlxalq təcrübədə işçilərin hüquqlarının həmkarlar təşkilatları tərəfindən qorunduğunu söyləyib.

Sonra çıxış üçün söz Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) icraçı direktoru Vüqar Səfərliyə verilib. O, jurnalistlərin sosial problemlərinin həlli istiqamətində KİVDF-nin strategiyasından danışıb: "Hazırda redaksiyaların 10 faizində əmək müqavilələri yoxdur. Redaksiyalar bir sıra halda jurnalistlərin əməkhaqqını aşağı göstərir. Onlar 22 faiz sosial ödənişlərlə bağlı bu addımı atırlar. Əmək müqaviləsi bildirişi sistemi artıq tətbiq olunur, əmək müqavilələri ilə bağlı məlumat avtomatik Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sistemində yerləşdirilməlidir. Jurnalistlər bunu bilməlidir".

V.Səfərli qeyd edib ki, yeni binada mənzil almaq üçün namizədliyi irəli sürülən jurnalistlərin əmək stajı ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə sorğular göndərilib: "2006-cı ildən əmək fəaliyyəti ilə bağlı bütün məlumatlar qeydə alınıb, elektron qaydada saxlanır, sosial kartlar mövcuddur. Şübhə doğuran jurnalistlərin əmək stajı ilə bağlı sorğulara cavablardan məlum olub ki, bir çox halda əmək kitabçasına iş stajı barədə möhür vurulub, ancaq bu saxtadır".

Mövzu ilə bağlı çıxış edənlər arasında İqtisadi-Sosial İnkişaf Mərkəzinin sədri Vüqar Bayramov da olub. O qeyd edib ki, son illər əmək hüquqlarının qorunması ilə bağlı atılan əsas addım əmək müqavilələrinin elektron qaydada qeydiyyatının aparılmasıdır: "İş yerlərində əmək müqavilələrinin bağlanıb-bağlanmamasının yoxlanılması praktiki olaraq çətin, bəzi hallarda mümkünsüzdür. Ancaq əmək müqavilələrinin elektron qaydada sistemə daxil edilməsi ilə nəzarətin həyata keçirilməsi daha asan olacaq. İşçi ilə əmək müqaviləsi bağlanmırsa, qeyri-leqal iş fəaliyyətindən söhbət gedirsə, işçinin əmək hüquqlarının qorunması mümkün olmur. Çünki əmək hüquqları əmək müqaviləsinin bağlanması ilə yaranır. Onu da nəzərə almaq lazımdır ki, işçilərlə xidməti müqavilə bağlanması əmək hüquqları yaratmır. Təəssüf ki, son dövrlər xidməti müqavilələr təklif edən iş yerlərinin sayı artır. Xidməti müqavilə ilə şəxs xidmət yerinə yetirir, bu xidməti müqavilələri ləğv etmək də çox asandır".

Daha sonra başqa bir mövzunun müzakirəsi baş tutub. "Azərbaycan jurnalistlərinin mövcud sosial durumu: sosial hüquqların qorunmasında həmkarlar təşkilatlarının rolu" mövzusunda çıxış edən M.Ələsgərli qeyd edib ki, Beynəlxalq Jurnalistlər Federasiyası dünyanın müxtəlif ölkələrinin 600 min jurnalistini ətrafında birləşdirir. Fasilədən sonra müzakirələr "Azərbaycanda jurnalistlərin həmkarlar təşkilatlarının durumu və gələcək inkişaf meylləri" mövzusunda davam edib. Tədbirdə Avropa Jurnalistlər Federasiyasının təmsilçisi Mehmet Köksal çıxış edib: "İlk dəfədir Azərbaycana, Bakıya gəlirəm. Şəhəri çox qısa bir zamanda gəzdiyimə baxmayaraq, ölkənin çox sürətlə inkişaf etdiyinin şahidi olduq. Avropa Jurnalistlər Federasiyası 43 ölkədə fəaliyyət göstərir. Məqsədimiz bu 43 ölkədə olan jurnalistlərin əmək hüquqlarını qorumaqdır. Harada yaxşı şərait varsa, yəni təhlükəsizlik, rahat iş şəraitinin olduğu yerdə, əlbəttə ki, jurnalistlik daha yüksək səviyyədə inkişaf edir. Qeyd edim ki, Azərbaycan jurnalistlərinin üzləşdikləri problemlər Qərb ölkələrində də var. Maaşla bağlı problem yaşayan jurnalistlər Belçikada da var. Həm Belçikada, həm də Fransada jurnalistlərin əmək hüquqları ilə bağlı tələbləri eynidir, sadəcə, onlar fərqli şəraitlərdə çalışır".

Həmçinin, tədbirdə Azərbaycan Həmkarlar Konfederasiyası, əməyin hüquq müfəttişi Sevil Zeynalova, hüquqşünas, əmək hüquqları üzrə ekspert Könül Ələkbərova, Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsinin sədri Azər Həsrət, Demokratik Jurnalistlər Liqasının sədri Yadigar Məmmədli, BDU-nun jurnalistika fakültəsinin professoru Cahangir Məmmədli çıxış edərək, konfransın mövzusu ilə bağlı fikirlərini bölüşüb.

Sonda tədbir iştirakçıları jurnalistləri maraqlandıran sualları cavablandırıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" layihəsi çərçivəsində çap olunub.**

# MƏHSUL BOL OLANDA...

Yazın gəlişi, havaların isti keçməsi kənd adamlarının qayğılarını artırıb. Şəhər sakinləri istirahət üçün müxtəlif məkanlara üz tuturlar. Azərbaycanın o qədər dilbər guşələri var ki, dağ ətəklərinə çəkilib sərinləmək olar. Kənddə yaşayanlar isə bunu edə bilmirlər. Mövsümün bu çağında hara çıxıb gedəsən? Bol məhsulun əsası yayın bu qızmar günlərində qoyulur. Ona görə də kənd təsərrüfatı dünyada ən çətin sahələrdən biri sayılır. Çox zaman subsidiyalar və dotasiyalarla idarə olunur.

Məhsul bol olanda zəhmət adamının üzü gülür, çöhrəsi açılır. Baramaçılar kimi. Bu il yaxşı məhsul götürüblər. Ölkə üzrə ən yüksək göstəricini isə Zərdab rayonu qazanıb. Fermerlər 27 ton barama yetişdirib təhvil veriblər.

Hazırda taxıl biçini qurtarmaq üzrədir, deyəsən, bu il məhsul bol olacaq. Dövlətimizin strateji məhsul hesab etdiyi pambıqçılıqda da becərmə işləri yüksək səviyyədə aparılır. Zərdab kimi orta səviyyəli bir rayonda, demək olar ki, kənd təsərrüfatının bütün sahələri inkişaf etdirilir. Meyvəçilik, tərəvəzçilik, bostançılıq və heyvandarlıq sahəsində işlər yaxşı təşkil olunub. Belə bir inkişaf dinamikası eləbelə əldə olunmayıb. Bunun kökündə cənab Prezident İlham Əliyevin bölgələrin sosial-iqtisadi inkişafına və tərəqqisinə göstərdiyi hərtərəfli dəstək və qayğı dayanır. Həmin dəstək bu istiqamətdə imzaladığı fərman və sərəncamlarda, prezidentin özünün rayonlara səfərlərində, keçirdiyi görüş və təmaslarda, səsləndirdiyi tapşırıq və tövsiyələrdə öz əməli təcəssümünü tapıb. Görülən tədbirlər nəticəsində bölgələrdə təsərrüfat-idarəetmə sisteminin təkmilləşdirilməsi və onun müasir tələb



və çağırışlara uyğunlaşdırılması, daxili resurslardan səmərəli və rasional istifadə mexanizmlərinin yaradılması, intizam və təşkilatçılığın möhkəmlən¬dirilməsi, yerli təşəbbüslərin dəstəklənməsi sahəsində irəliyə doğru böyük addımlar atılıb.

Baramaçıların qazandığı uğurlar da sadalanan amillər hesabına mümkün olub. Elə götürək Zərdab rayonunu. Cari ildə rayon üzrə 233 kümçüyə 480 qutu inkubasiya olunmuş barama qurdu paylanıb. Bu gün son nəticə məlumdur: 27 ton barama təhvil verilib. Bu işlərə mövsüm ərzində 611 nəfər işçi cəlb olunub.

Sözsüz ki, rayonda zəngin baramaçılıq ənənələri olmasaydı, illərin təcrübəsi insanların karına çatmasaydı, belə uğurlar qazanmaq mümkün olmazdı. Bütün bunlar əsas şərtlərdir. Lakin nə qədər təcrübə, səriştə olursa-olsun dövlət öz yardım əlini uzatmasaydı, dəstəyini göstərməsəydi, qısa zaman kəsiyində baramaçılıqda bu cür dirçəliş baş verməzdi. Bu fikri rayonun qabaqcıl kümçüləri də təsdiqləyirlər. Sıxbağı kənd sakini Surxay Xəlilov cari ildə rayon üzrə ən çox barama təhvil verən kümçüdür. O, builki işindən razılıq ifadə edərək deyir:

- Zərdab zəngin baramaçılıq ənənələri olan rayonlardan biridir. Çox təəssüf ki, son illər bu gəlirli sahə tamam unudulmuşdu. Nə səbəbdən, hansı arqumentə əsasən bu edilmişdi, cavabını tapa bilmirəm.

Yaxşı ki, cənab prezident bu boşluğu gördü və onun aradan qaldırılması istiqamətində sərəncam imzaladı. Pambıqçılıq kimi, baramaçılıq da strateji kənd təsərrüfatı məhsulları sırasında özünə yer aldı. Keçən il bu işə başlanıldı və elə həmin il də yüksək nəticələr qazanıldı. Sanki hamı bu günü gözləyirmiş. Bu sahəyə güclü axın başlandı.

Cari ildə 2 ton 865 kiloqram barama təhvil vermişəm. Məhsulun alış qiyməti bizi qane edir. Bu, az qala kənd adamının bir illik büdcəsidir. Hazırda ən çox diqqəti yeni tut plantasiyalarının salınmasına veririk. Belə bir perspektivli sahənin inkişafı üçün yem ehtiyatlarının yaradılması mühüm şərtdir. Baramaçılıqla bütün ailə üzvləri məşğul olur, bu isə işimizi irəli aparır. Gələn il istehsalı ən azı iki dəfə artırmaq niyyətindəyik. Bunun üçün müvafiq yerlər ayrılır, hazırlıq işləri görülür.

Alıcanlı kənd sakini Ataş Rzayev də təcrübəli kümçülərdən biridir. Onun göstəriciləri də yüksəkdir – 2 ton 517 kiloqram. Bu ailə nəsilliklə baramaçılığa meyil göstərir, necə deyərlər, bu işin bütün incəliklərinə bələddirlər. Bacarıqlı kümçünün fikrincə, əsas şərtlərdən biri sağlam toxumdur, ikinci mühüm şərt barama yetişdirmək üçün münasib yerlərin seçilməsidir. Yeniləmə, aqrotexniki tədbirlər vaxtında aparılmalıdır. Yalnız bunlara əməl olunduqda yüksək məhsuldarlıqdan, keyfiyyətli məhsuldan danışmaq olar. O deyir ki, daha bir maraqlı cəhət də ondan ibarətdir ki, indiki baramaqurdu toxumları əvvəlkilərdən xeyli fərqlidir. Belə ki, yetişmə müddəti xeyli azalıb. Digər tərəfdən, yemə tələbat da o qədər çox deyil. Bunu rayonun bütün təcrübəli kümçüləri təsdiqləyir. Baramaçılığa meyli artıran amillərdən biri də budur – xərclər azalır, rentabellik artır.

Rayonda İsrafil Ağayev də qabaqcıl kümçülərdən sayılır. Bu il onun da əhval-ruhiyyəsi yüksəlib. O, deyir ki, təkcə mən yox, bu işdə məşğul olan hər kəsin ovqatı dəyişib. Cəmi bircə ay işləyəsən, yaxşı gəlir götürəsən – kənd təsərrüfatında belə sahə tapmaq çətindir.

Buna görə də baramaçılığa həvəs və maraq ildən-ilə artır. Lakin bu işin də özünəməxsus çətinlikləri var. Gərək bacardığın işin qulpundan yapışasan. Bu il elə adamlar oldu ki, məndən də çox barama toxumu götürdülər, lakin əldə etdikləri məhsul dəfələrlə az oldu. Təkcə istək, həvəs azdır. Bilik, təcrübə, səriştə də lazımdır. Bunların biri olmadıqda uğur qazanmaq çətindir. Bu təsərrüfat adamı işindən-gücündən elə şövqlə danışdı ki, baramaçılığa qarşı bizdə də həvəs oyatdı. Çünki hansı təsərrüfatlarda oluruqsa, çox zaman giley-güzar eşidirik – əkin gecikdi, su olmadı, məhsulu yaxşı qiymətə sata bilmədik… O, isə giley-güzar əvəzinə şükranlıq etdi. Bu il 2 ton 371 kiloqram barama təhvil verib, lakin bunu son hədd kimi qəbul etmir. Çünki onun lazımi qədər işçi qüvvəsi, yem bazası və müvafiq saxlama şəraiti vardır. Belə olan halda niyə də istehsalın həcmini genişləndirməsin?

Rayonda digər kümçülərin adları da qabaqcıllar sırasında özünə yer alıb. Belə ki, Əlibəyli kəndindən Mirmahmud Əhmədov, Allahqulubağı kəndindən Abdulhəmid Babayev, Məlikli kəndindən Azər Qurbanov və başqaları da yüksək nəticələr əldə etmişlər. «Şəki-İpək» Açıq Səhmdar Cəmiyyətindən bildirdilər ki, Zərdab kümçülərinin yetişdirdikləri məhsul özünün yüksək keyfiyyət göstəriciləri ilə fərqlənir.

Məhsulun dəyərinin ödənişində heç bir problem yoxdur. Belə ki, hər kiloqrama görə, səhmdar cəmiyyət 5 manat, subsidiya şəklində isə 4 manat ödəyir ki, bu da kümçüləri qane edir.

Taxıl biçini də başa çatmaq üzrədir. Hər il olduğu kimi, cari ildə də nəticə ürəkaçandır. Zəmilərdən 55 min ton taxıl götürüləcək ki, bu da son illərin ən yaxşı nəticəsi hesab olunur. Havaların əlverişli keçməsi, əzmkar zəhmət və yüksək işgüzarlıq öz bəhrəsini verməkdədir.

Taxılçılıqdan danışarkən bir mühüm məsələnin üstündə dayanmağı vacib sayırıq. Bu, təkcə Zərdab rayonuna yox, taxılçılıqla məşğul olan digər rayonlara da aiddir. Respublika üzrə elə təsərrüfatlar vardır ki, məhsuldarlıq hər hektara 25-30 sentnerdən o yana keçmir. Mütəxəssislər yaxşı bilirlər ki, belə təsərrüfat subyektləri rentabelli işləyə bilməzlər. Azərbaycan elə bir ölkədir ki, burada iqlim qurşaqlarının az qala hamısı mövcuddur. Burada ikinövbəli, hətta üçnövbəli əkin aparmaq mümkündür.

Belə olan halda il boyu gözləyib, 25-30 sentner məhsul götürməyə dəyərmi? Açığını demək lazımdır ki, Zərdab rayonunda da belə fermer təsərrüfatları qalmaqdadır. Lakin sevindirici hal budur ki, son illər sahələrdən 45-50 sentner taxıl götürən təsərrüfatların sayı artıb. Bunun bir neçə səbəbi vardır. Ən əsas şərt toxum materialının düzgün seçilməsi, yəni yüksək reproduksiyalı toxumlar səpilməsidir. İkinci mühüm məsələ şumlama, arat, suvarma, gübrələmə tədbirlərinin yüksək aqrotexniki tələblərə uyğun şəkildə və optimal müddətdə aparılmasıdır. Nəhayət, məhsulun vaxtında və itkisiz yığılıb təhsil verilməsidir.

«Aqrolizinq» ASC-nin Ağcabədi regional nümayəndəliyinin Zərdab bölməsindən aldığımız məlumata görə, zəmilərdə 40 taxılyığan kombayn işləyib, maşın-mexanizm sarıdan yığım mövsümü ərzində heç bir ciddi problem yaşanmayıb. İlk günlərdən iş elə təşkil edilib ki, boşdayanma hallarına yol verilməsin. Müəyyən edilmiş qrafikə əsasən, kim harada və nə vaxt biçinə başlayacağını əvvəlcədən bilib. Zəmilərdən bol məhsul toplayan fermerlər bu günlərdə fərəh və sevinc hissləri keçirirlər. Belə fermerlərdən Laçın Babayevin, Asif Mahmudovun, Elşən Xanlarovun adlarını qeyd etmək olar. Onlar sahələrdən hər hektara 35-40 sentner məhsul götürüblər.

Pambıq sahələrində, heyvandarlıqda, yem bazasının yaradılmasında, meyvə-tərəvəzçilikdə də işlər yaxşı təşkil edilib. Bu günədək heç bir sahədə ciddi problem yaşanmayıb. Zərdablıların əkin sahələrinə, otlaq və biçənəklərinə, meyvə bağlarına ana Kür dirilik suyu gətirib, hər yanı gülə-çiçəyə, laləzara çevirib.

Fədakar insanların gərgin zəhməti, tarlalarda yaşanan coşqu və ehtişam bu il də bol məhsulun olacağından soraq verir.

**Zülfü İLYASOV,**
**bölgə müxbiri,**
**Zərdab rayonu**

# FONDUN MÜŞAHİDƏ ŞURASININ YENİ TƏRKİBDƏ İLK İCLASI KEÇİRİLİB



İyunun 29-da Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının yeni tərkibdə ilk iclası keçirilib.
İclasda Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Fondun icraçı direktoru Vüqar Səfərli və Müşahidə Şurasının yeni təyin olunmuş üzvləri iştirak ediblər.
Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, Administrasiyanın İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 13 iyun 2017-ci il tarixli sərəncamı ilə yenidən Fondun icraçı direktoru təyin edilmiş Vüqar Səfərlini təbrik edərək, ona fəaliyyətində uğurlar arzulayıb. Ə.Həsənov dövlətimizin başçısının 05 iyun 2017-ci il tarixli sərəncamı ilə təyin edilmiş Fondun Müşahidə Şurasının üzvlərini də təbrik edərək, onların Fondun səmərəli fəaliyyətinə layiqli töhfələr verəcəklərinə əminliyini ifadə edib.
Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi dövlətin mediaya daim yüksək diqqət və qayğı göstərdiyini, bunun əyani nümunəsi olaraq 8 il əvvəl yaradılmış Fondun fəaliyyətini və həyata keçirdiyi layihələri yüksək qiymətləndirib. Ə.Həsənov Fondun fəaliyyətinin ictimaiyyət üçün daim açıq olduğunu, medianın inkişafına xidmət edən bütün qərarların Müşahidə Şurasının iclaslarında şəffaf və kollegial şəkildə qəbul olunduğunu bildirərək, ötən illərdə formalaşmış müsbət idarəçilik ənənələrinin bundan sonra da davam etdiriləcəyinə əminliyini ifadə edib.
Əli Həsənov Fondun dövlət büdcəsindən ayrılmış vəsait hesabına ölkədə fikir, söz və məlumat azadlıqlarının inkişafına, mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi və jurnalistlərin sosial müdafiəsinin yaxşılaşdırılmasına xidmət edən çoxsaylı layihələr həyata keçirdiyini diqqətə çatdırıb. Kütləvi informasiya vasitələri əməkdaşlarının mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə yaşayış binalarının inşa edilməsini dünyada analoqu olmayan konstruktiv təcrübə kimi qiymətləndirən Ə.Həsənov 22 iyul - Milli Mətbuat Günü münasibətilə daha 255 mənzilin ədalətli və şəffaf seçim əsasında jurnalistlərin istifadəsinə veriləcəyini diqqətə çatdırıb.
Sonra Fondun Nizamnaməsinə müvafiq olaraq iclasda Müşahidə Şurasının sədri və sədr müavininin seçilməsi ilə bağlı müzakirələr aparılıb. Müşahidə Şurası üzvlərinin yekdil səsverməsi ilə "Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov Şuranın sədri, "Trend" İnformasiya Agentliyinin baş direktoru İlqar Hüseynov sədr müavini seçilib.
Fondun icraçı direktoru Vüqar Səfərli göstərilən etimadı doğrultmaq üçün bundan sonra da səylə çalışacağını qeyd edib.
Müşahidə Şurasının sədri Həsən Həsənov, şura üzvlərindən İntiqam Hümbətov və Bəhruz Quliyev çıxış edərək, göstərilən yüksək etimada görə dövlət başçısına təşəkkürlərini bildirib, Fondun və Müşahidə Şurasının səmərəli fəaliyyəti üçün səylə çalışacaqlarını vurğulayıblar.
İclasda Fondun gələcək fəaliyyət istiqamətləri ətrafında da müzakirələr aparılıb.

# REKLAM MÜRACİƏTİNİN YARADILMASININ ƏSAS QAYDALARI VƏ MƏRHƏLƏLƏRİ



Reklam kampaniyasının uğuru reklam müraciətinin işlənib hazırlanmasından əhəmiyyətli dərəcədə asılıdır.
Geniş mənada reklam müraciəti konkret formaya (mətn, vizuallıq, səs və s. formaya), reklam məhsuluna malik olan istehlakçıya reklam vericisinin informasiyasını təqdim edən vasitədir ki, bu reklam məhsulunun köməyilə reklam verici öz müştərilərinə müraciət edir.
Öz-özlüyündə reklam elanlarının işlənib hazırlanmasının ciddi prinsipləri mövcud deyil. Lakin buna baxmayaraq, elanların işlənib hazırlanmasına, onun strukturuna, mətnin yaradılmasına və illüstrasiyalarına, eləcə də kompozisiyanın qurulmasına görə tövsiyələri və reklamın yaradılmasının ümumi metodlarını ayırmaq olar. Onların əhəmiyyətlərini qeyd etmək lazımdır:
1. Reklam elanı yalnız bir elana, bir əmtəəyə (xidmətə) və ya yekcins əmtəələr qrupuna həsr olunmalıdır. Bir çox müxtəlif əmtəələri reklam edən elan səmərəli deyil, belə ki, oxucu bütün informasiyanı yadda saxlamır. Bundan əlavə, müxtəlif əmtəələrin reklamı müxtəlif məqsədli auditoriyaya malikdir və deməli, müxtəlif reklam vasitələrində müxtəlif cür işlənib hazırlanmalı və yerləşməlidir. Bu səbəbdən bir elanda müxtəlif mövzuları qarışdırmaq olmaz. Məsələn, məhsul haqqında informasiyanın verilməsi, firmanın imicinin dəyişdirilməsi (və ya işə qəbul) və s.
2. Reklam elanı məqsədli auditoriyaya dəqiq yönlənməyə malik olmalıdır (onun tələblərini, tələbatlarını, arzu və istəklərini, maraqlarını, alqının motivlərini əks etdirməlidir). Abstrak geniş kütləyə yox, konkret istehlakçıya müraciət etmək lazımdır. Onların xarakteristikası və alqının mümkün motivləri əvvəlcədən öyrənilir.
3. Əmtəənin bazar mövqeyini (istehlakçıların əmtəəyə üstünlüyünü formalaşdıran rəqiblərin bu əmtəələrdən fərqini) dəqiq ifadə etmək lazımdır. Reklam təklifinin mahiyyəti maksimum dərəcədə aydın və anlaşıqlı olmalıdır.
4. Reklam xəbəri doğru və sübut oluna bilən olmalı, əmtəənin xeyirinə olan faktları və dəlilləri, əsasları ehtiva etməlidir. Fərdi istehlak mallarının reklamı üçün bir neçə dəlilin (1-3) olması kifayətdir. Yalnız dəqiq faktlardan istifadə edilməsi və ümumiləşdirmələrdən yan keçilməsi arzuolunandır. Malın (əmtəənin) məziyyətlərini şişirtmək tövsiyə olunmur. Həmişə reklam olunan əmtəə haqqında informasiyanı yoxlamaq zəruridir. Reklamda yalan informasiyanın yayılması qanunla təqib olunur.
5. Reklam mətnini çox yükləmək olmaz. Reklam mətnində yalnız həqiqi olanlar əks olunmalıdır. Optimal qavrayış effektinə iki-dörd arası abzas və cümlələrdən ibarət reklam mətnində nail olmaq mümkündür. İfadədə orta oxucuya meyillənmək zəruridir.
6. Elanda uğurlu reklam ideyası, xüsusilə məlum qərarları təkrarlayan və qavramaq üçün asan olan orijinal ideya ehtiva olunmalıdır. Lakin yalnız ideyanın deyil, həmçinin mətnin də orijinallığı vacibdir, onu çeynənmiş ifadələrlə, bayağı sözlərlə, şablon ifadələrlə, klişe ilə (çox zaman istifadə olunan standart ifadə və sözlər) korlamaq olar.
Belə ifadələr cansıxıcı olur (rəqiblərin reklamını öyrənmək və başqalarını təkrar etməmək lazımdır). Xüsusilə mənasız standart, şablon, çeynənmiş ifadələrdən qaçmaq məqsədəuyğundur. Kəskin, gözlənilməz, təzə, çeynənməmiş və aktual olan sözləri, ifadələri, üsulları axtarmaq zəruridir.
7. Xəbərdə diqqəti cəlb edən və saxlayan (parlaq, qeyri-adi illüstrasiya, orijinal sərlövhə və s.) hər hansı bir ifadə olmalıdır.
8. Reklam mətni, illüstrasiyası, rəngi və şrift tərtibatı əməənin xarakterini və tərzini əks etdirməlidir.
9. Reklam xəbəri yayılma vasitəsinə uyğun olmalıdır (onu nəzərə almaqla işlənib hazırlanmalıdır).
10. İstehlakçının şüurunda əmtəənin (şirkətin) adını tətbiq etmək lazımdır, əks halda istehlakçı hansı əmtəədən söhbət getdiyini xatırlamayacaqdır. Bundan əlavə, reklamda ideyanı əks etdirən qeyri-etik ifadələrə yol vermək olmaz, çünki o, müştəri tərəfindən neqativ qarşılanır. Reklamda istehlakçının yaddaşında vizual marka surətini (firma nişanını) tətbiq etmək lazımdır.
11. Elanda neqativ assosiasiyalardan xilas olmaq lazımdır.
12. Reklam elanına qoyulan dəyişikliklər (məsələn, elanlar seriyasında ya müxtəlif reklam vasitələrində) reklamın ümumi üslubunu və emosional çalarını dəyişməməli, məhsulun mövqeyinə cavab verməlidir.
Reklam müraciətlərinin işlənib hazırlanması prosesi aşağıdakı mərhələləri əhatə edir:
1.Reklam mətninin dürüst izahı.
2.Marketinq-reklam tədqiqatlarının nəticələrinin aparılması və təhlili.
3.Yaradıcı reklam strategiyasının və reklam ideyasının işlənməsi. Müraciətin üslubunun və tonunun, yeni fərq incəliyinin seçilməsi.
4. Müraciətin strukturunun müəyyən edilməsi və onun əsas elementlərinin yaradılması.
5.Kompozisiyanın qurulması və reklam modulunun maketinin yaradılması.
Hər şeydən əvvəl, elanı tərtib edərkən marketinq vəzifələrindən irəli gələn bu reklam kampaniyasının məqsədi maksimum anlaşıqlı olmalıdır, çünki reklam müraciətinin işlənib hazırlanmasına yanaşmalar məhz reklamın məqsədləri ilə müəyyən olunur.

**(davamı var)**

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

# Microsoft minlərlə əməkdaşı işdən çıxarmağa hazırlaşır

Microsoft yenidənqurma çərçivəsində minlərlə əməkdaşı işdən çıxarmağa hazırlaşır. Şirkətin iyun ayında satışlarındakı azalmanın da bu həmləyə təsir etdiyi iddia edilib.
Satış əməliyyatını nəzərdən keçirmək qərarı verdiyi bildirilən Microsoft korporativ müştəri departamentlərini birləşdirməyi və kadrları ixtisar etməyi planlaşdırır.
Mövzu ilə bağlı hələ rəsmi açıqlama verilməyib.
Keçən il Microsoft 2850 nəfəri işdən çıxarmışdı. Ən böyük ixtisar 900 nəfərlə satış komandasında olmuşdu. Nokia-nın satın alınmasından yaranmış 8 milyard dollara yaxın ziyana görə 2015-ci ildə 7800 şəxsi heyətilə yollarını ayıran Microsoft iki ay əvvəl yenə ağıllı telefonlar departamentindəki 1850 nəfərin işinə son vermişdi.







**ETİBARSIZDIR**

Qəzənfərova Sona Zülfüqar qızının adına Xaşa-Xuna bağ massivində yerləşən torpaq sahəsinə verilmiş order itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Milli Məclisin deputatı Tahir Süleymanova əzizi
**DİLARƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: 566 09 60**
**Faks: 514 14 27**
**Mühasibatlıq: 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500**